Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 32 (1160) 17 fevral - 18 fevral 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# BU GÜNÜN BALAKƏNİ MÜSTƏQİLLİYİMİZİN TÖHFƏSİDİR

*Nikbinliyin səbəbi*

**Bu günlər ökləmizin hər yerində olduğu kimi Balakən rayonunda da həyat öz ritmi ilə davam etməkdədir. Məlum səbəbdən bir sıra gözlənilməz problemlərin yaranması heç kimi ruhdan salmayıb. Hamıda daha yaxşı çalışmaq, öz əməyi ilə vətənə daha çox töhfə vermək həvəsi yüksəlib. Bu nikbinliyin səbəbini başa düşmək də çətin deyil. İnsanlar müqayisələr aparmağı, reallıqları sərf-nəzər etməyi, düzgün nəticə çıxarmağı sadəcə yaxşı bilirlər. Son 10-15 il ərzində bu ucqar sərhəd rayonumuzun inkişafı göz qabağındadır. Müstəqil Azərbaycanın Balakəni dövlətimizin və prezidentimizin diqqət və qayğısı nəticəsində müasir bir bölgəyə çevrilərək sevinc bəxş etməkdədir. Balakən şəhəri, eləcə də rayonun qəsəbə və kəndləri tanınmz dərəcədə müasirləşərək davamlı inkişaf yolundadır. Ölkə rəhbərliyinin apardığı düzgün daxili və xarici siyasət nəticəsində çətin başalanan 2015-ci ilin də göstəriciləri uğurlu olmuş, qarşıya qoyulan vəzifələr yerinə yetirilmişdir. Bütün bunlar və digər məsələlər barəsində Nazirlər Kabietinin 2015-ci ilin yekunlarına həsr olunmuş müşavirəsində cənab Prezident geniş nitq söyləyərək qarşımızda duran ən mühüm vəzifələrin nədən ibarət olduğunu bir proqram şəkilində diqqətə çatdırmışdır. Ölkə əhalisi bir daha əmin olmuşdur ki, xalqın və dövlətin prezidenti bütün varlığı ilə hər bir vətəndaşın rifahı, xoş güzaranı üçün çalışır və mübarizə aparır.**

**“ ...Balakənin son illər ərzində inkişafı məni və yəqin ki, sizi çox sevindirir. Çünki doğrudan da son illərdə böyük bir irəliləyiş olmuşdur. Balakəndə sosial problemlər öz həllini tapır. İnsanların istirahəti üçün gözəl imkanlar vardır. Deyə bilərəm ki, Azərbaycanın bölgələrində bəlkə də ən böyük istirahət parkı Balakəndədir. Çox gözəl, möhtəşəm parkdır. Həm böyük rəmzi məna daşıyır, eyni zamanda, insanların rahat istirahəti üçün də çox gözəl imkanlar vardır”.**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



*Balakən 2015-dən 2016-ya...*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetində 2015-ci ilin yekunlarına həsr olunmuş müşavirə ilə bağlı ümumrayon yığıncağında Balakən Rayon İcra Hakimiyətinin başçısı İslam Rzayev ilin yekunları və qarşıda duran vəziflər haqqında ətraflı danışaraq demişdir:

- Qeyd olunmalıdır ki, hesabatını verdiyimiz 2015-ci il Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Kənd təsərrüfatı" ili elan olunmuş və bununla bağlı dövlət tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi, eləcə də istehsalçıların maddi marağının artırılması sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Hesabat ilində rayonun kənd təsərrüfatının inkişaf etdirilməsi və məhsul istehsalının artırılması məqsədi ilə həyata keçirilən tədbirlərlə yanaşı, kəndlər üzrə hədəf göstəricilərin müəyyən edilməsi, quraqlığa davamlı toxuma olan tələbatın ödənilməsi, kəndlərdə istehsalçılarla görüşlərin keçirilməsi, təsərrüfat işlərinin gedişinə operativ nəzarətin təşkili özünün müsbət səmərəsini vermiş və əkin sahələrinin 2,2 % artırılması mümkün olmuşdur. Fermerlər və torpaq mülkiyyətçiləri də öz növbəsində onlara göstərilən köməklikdən maksimum istifadə etməklə keçən ilə nisbətən məhsul istehsalının artırılmasına nail olmuşlar.

Rayonda 12333 ha sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir. Onun 463 hektarı taxıl, 7101 hektarı qarğıdalı, 2041 hektarı tərəvəz, 1151 hektarı yonca, 378 hektarı lobya, 887 hektarı kartof, 312 hektarı bostan olmuş, sahələrdən 1144 ton taxıl məhsulu götürülmüşdür. Təsərrüfatlarda 40 min ton qarğıdalı, 22,1 min ton tərəvəz, 8,2 min ton kartof, 3,2 min ton bostan, 701 ton lobya, 28 min tondan çox meyvə və digər məhsullar istehsal olunmuşdur. Əvvəlki illərdə salınmış 183 ha intensiv meyvə bağlarına aqrotexniki qulluq göstərilmiş və məhsul istehsalının artırılması üçün əlavə tədbirlər görülmüşdür.

Hesabat ilində 3736 ha sahə təyinatına uyğun olmayaraq ot tədarükü məqsədləri üçün istifadə olunmuşdur. Qeyd olunmalıdır ki, əkin aparılmadan ota saxlanılan sahələrdən təyinata uyğun istifadəyə nail olunmalı, taxıl, qarğıdalı, tütün, tərəvəz şəkər çuğunduru kimi bitkilər əkilməlidir. Eyni zamanda, məhsuldarlığı yüksək olan yem bitkilərinin, o cümlədən, yoncanın əkilməsi məqsədəuyğundur. Bununla da fermerlərimiz həm dövlətin aqrar sektora verdiyi maliyyə dəstəyindən-subsidiyalardan istifadə edə bilər, həm də məhsul istehsalını artırmaqla gəlirlərinin artırılmasına nail ola bilərlər. Qeyd etmək istəyirəm ki, Cənab Prezident tərəfindən xüsusilə aqrar sektorun inkişaf etdirilməsi sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün "Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı potensialının müəyyən edilməsi, mövcud problemlərin öyrənilməsi, məhsul istehsalı və satışı imkanlarından daha səmərəli istifadə edilməsi haqqında " RİHB-nın 22 yanvar tarixli müvafiq Sərəncamı imzalanmışdır. Sərəncama əsasən yaradılan komissiya tərəfindən görülmüş tədbirlər nəticəsində qısa müddət ərzində mülkiyyət sahibi olan paycılar və bələdiyyələr tərəfindən müsbət nəticlər əldə edilməkdədir. Belə ki, hələlik 78,5 ha sahədə 304 nəfərə tütün bitkisinin əkilməsi üçün toxum və polietilen örtük verilmişdir. Həmçinin, qarğıdalı və bostan bitkilərinin əkinlərinin artırılması, eyni zamanda, ota saxlanılmış sahələrdə yonca əkinlərinin aparılması imkanları araşdırılır. Komissiya ilkin nəticə olaraq təyinatına uyğun istifadə olunmamış bələdiyyə mülkiyyəti üzrə 350 hektar, xüsusi mülkiyyət üzrə əlavə 2100 hektar sahədə qarğıdalı, yonca, tərəvəz və digər bitkilərin əkilməsi imkanları müəyyənləşdirilmişdir ki, bu da öz növbəsində əlavə olaraq 1450 nəfər əmək qabiliyyətli kənd sakinlərinin məşğulluğunun təmin edilməsi deməkdir. Komissiya tərəfindən məhsul istehsalına və satışına dair elektron məlumat bazası da yaradılacaqdır.

Qeyd olunmalıdır ki, rayonda əkinə yararlı olmayan torpaq sahələrində fındıq, şabalıd və qoz ağaclarının əkilməsinə də diqqət artırılmalıdır. RİH-də yaradılan komissiya tərəfindən bu məqsədlə təhlillər aparılır. Artıq 139 hektar sahə müəyyənləşdirilib və ağac əkini mövsümü zamanı adı çəkilən ağacların həmin sahələrdə əkilməsi təmin olunacaqdır...



*"Kənd təsərrüfatı" ilinin uğurları*

Yığıncaqda qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-ci il tarixli 1907 nömrəli "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamının icrası ilə əlaqədar 2015-ci ildə 2063 nəfər istehsalçıya becərdikləri 5179 ha əkin sahəsinə görə hər hektara 50 manat olmaqla 258,9 min manat yardım ödənilmişdir. İstehsalçılara güzəştli qiymətə 993,4 ton mineral gübrələr, 4 kənd təsərrüfatı texnikası lizinq yolu ilə satılmışdır. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına fermerlərə 10 layihə üzrə 162 min manat kredit verilmişdir.

**Rayonda bitkiçiliklə yanaşı heyvandarlığın inkişaf etdirilməsi istiqamətində də ardıcıl işlər aparılır. Hesabat ilində mal-qaranın baş sayında əvvəlki ilə nisbətən artım əldə olunmuşdur.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ